

ƏLƏSGƏR TALIBOĞLU

## ÖMƏR NECƏ DƏCƏLDİ

Ömər kiçik olsa da,
çox mehriban uşaqdı.
Yaşıdları içində
bir dəcəldi, qoçaqdı.
Elə dəcəldir ki, o,
sanki tamam oyundu.
Hər yerişi, duruşu
bir sevincdi, düyündü.
Gah yeriyir, yıxılır,
gah da mayallaq aşır,
gah da ki,qarış-qarış
otaqları dolaşır.
Hərdən bir dəcəl çəpiş,
hərdən də quzu olur.
İt kimi hürə-hürə
balaca tazı olur.
Bəzən bütün ev boyu
dana kimi böyürür,
bəzən də buğa olub
üstümüzə yüyürür.
Yuxu ilə yox işi,
çox az yatır bu Ömər.
Ev-eşiyi bir-birinə
yaman qatır bu Ömər.
Bircə bunu bilin siz,
ey yaxınlar, ey dostlar,
Ömər kimi çox dəcəl,
sevimli bir uşaq var...

## İŞGÜZAR QIZ

Bu balaca Fidanın
Gözləri bir cüt ulduz.
Bax, necə də ağıllı,
İşgüzardır bizim qız.

Dörd yaşında olsa da,
Heç yorulmaq bilməyir.
Tez yerinə yetirir
Nənəsi nə söyləyir.

Kömək edir hər an o,
Nənəsinə yaxından.
Nənəsini sevir o,
Nəvələrin çoxundan.

Mehriban babasının
Hey boynuna sarılır.
Çünki babası ona
Gözəl gəlincik alır.

## O MÜĞƏNNİ OLACAQ

Hələ doqquz aylıqdır
mənim Xədicə nəvəm,
İstərəm ki, mən onu
hey oxşayam, hey sevəm.

İstər qucaqda olsun,
istərsə də beşikdə,
Öz-özünə qığıldar,
həm evdə, həm eşikdə.

Yaman heyran qalmışam,
bu uşağa, vallah, mən.
Qəlblərə nur çiləyir
oxuduğu nəğmədən.

İnanıram ki, bu qız
aləmə səs salacaq.
Böyüyəndə yəgin ki,
o müğənni olacaq.

## DİLAVƏR QIZ

Şirin, gülərüz Xavər
dil boğaza qoymayır.
Dəcəllik də etməkdən
vallah, billah doymayır.

Heç yorulmaq bilmədən
ağlına hər gələni
öşələyib hey tökür.
Evi tarmar eyləyib,
təp-təzə oyuncağı
həmancə bir-bir sökür.

Dilotu yeyib sanki,
bülbül kimi ötür o.
Bir an belə susmayır,
istər hara götür o.

Çox ağıllı, məntiqli
suallar verir Xavər.
Odur ki, hər kəs onu
çağırır bax, Dilavər.

## "ƏTCƏBALA" ƏKBƏR

"Ətcəbala" Əkbərin
qırxı çıxmayıb hələ.
Gəlişiylə hay salıb
bir obaya, bir elə.

Kimini baba edib,
kiminisə o nənə.
Hər kəsə"pay"gətirib
"boxçasında" bir dənə.

Birinə "bibi","əmi",
Birinə "xala" adı.
Birinə "dayı" deyə
baldan şirin bal dadı.

"Ətcəbala" Əkbərin
gəlişi çox şəst olub.
İllah da ki, babası
sevincindən məst olub.

## GOMBUL YUSİF

Bizim balaca Yusif
uşaqlıqdan elə hey
çoxlu yemək yeyərdi.
Hər yeyəndən sonra da
yatmaq vaxtı gələndə
"yox, hələ acam, yenə
Yemək verin", deyərdi.

Odur ki, o yamanca
şişib olmuşdu gombul.
Uşaqlar yerə yıxıb
çalardılar qarnında
zarafatla hey dumbul.

O isə gülə-gülə
haray salıb bağırar,
dostlarını söyərdi,
hələ gücü çatanı
arada bir döyərdi.

Məhlədə hər kəs onu
çağırır "Gombul", deyə,
O isə qürur duyur
qarnına döyə-döyə.

## RƏQQAS QIZ

Bu balaca Ayselin
siz baxmayın boyuna.
Görənlər valeh olur
onun hər bir oynuna.

Rəqs etməyi çox sevir,
yorulmur oynamaqdan.
Bircə an da doymayır
bulaqtək qaynamaqdan.

Sanki  yerə dəyməyir
çəlimsiz ayaqları.
Əlləri göydə uçur,
allanır yanaqları.

Dörd tərəfi bürüyür
sevinc dolu sədası.
Hamını məst eyləyir
çılğın hissi, nidası.

## BİZİM ARZU

Bizim Arzu görəndə
həyətdəki quşları.
Bütün evi bürüyür
hay-küyü, alqışları.

Tez çığırıb bağırır,
evi vurur bir-birnə.
Həmən yemək aparır
onların hər birinə.

Yedirir o quşları
birbəbir, dənə-dənə.
Özü isə seyr edir
sevincək dönə-dönə.

Görsəniz necə sevir
sərçəni, göyərçini.
Quşların ən gözəli,
rəngi əlvan, çinçini.

Quşlar sanki can verir
bu dəcəl qızcığaza.
Onunçün də aparır
payını quşcuğaza.

## BU GÜN MƏNİM AD GÜNÜM

Bu gün mənim ad günüm,
Doğum günüm, şad günüm.
Tamam olub beş yaşım,
Sevinirəm qardaşım.
Dostlar yığışıb bizə,
Gecəm dönüb gündüzə.
Sevincimin həddi yox,
Məni təbrik edən çox...
Hər kəs öpüb oxşayır
Xoş sözlər deyə-deyə.
Bu sevincdən ürəyim
Sığışmır yerə-göyə.
Bilmirəm ki, nə deyim
Bu gün sizə, a dostlar.
Elə siz də mənimtək
olun belə bəxtiyar.

## BİZİM QONŞU RAMİN

Bizim qonşu Raminin
necə kiçikdir boyu.
Əməlinə baxsanız,
dam dolusu var toyu.

Heç zaman sakit durmur,
bir an olsa da belə.
Eh... yorulmaq bilmədən
dəcəllik edir elə.

Evi vurur bir-birinə,
eyləyir ələk-vələk.
Hünəriz varsa əgər
onu tutun siz görək.

Hər deşikdən-deşiyə
siçan kimi qaçır o.
Elə bil ki, qaçmayır
sanki yerlə uçur o.

"Siçan" - deyə çağırır
odur ki, onu hər kəs.
Bu heç də, bax, boşuna
əbəs deyildir, əbəs...

## GÜLƏRÜZ AYDAN

Bu gülərüz Aydanın
hələlik var üç yaşı.
Baxın, könül oxşayır
həm yanağı, göz-qaşı.

Evin tək övladıdır,
hər ürəkdə öz yeri.
Belə şirin bir qızın
yox tayı-bərabəri.

Bu qızın bir sözünü
kimsə etməz heç iki.
Di gəl ki, şıltaqlıqla
işi yoxdur hələ ki.

## DƏFTƏR-QƏLƏMSİZ YATMIR

Hüseyn kiçik olsa da,
özünə xas işi var.
Hər kəsin də sevdiyi
çox ilginc vərdişi var.

Elə dəftər, qələmdir
oynadığı oyuncaq.
Heç yorulmaq bilmədən
oynayır o doyuncaq.

Sağa-sola çevirib
varaqları yazır o.
Hərdən də gülə-gülə
yazdığını pozur o.

Arada bir də yazır
gah əlini üzünü.
Mürəkkəblə boyayır
həm burnunu, gözünü.

Öyrəşibdi Hüseynin
əli qələm tutmağa.
Dəftər-qələmsiz elə
o getməyir yatmağa.

## ÇİÇƏK DƏRDİ ANASINA

Nərgiz bu gün
dayısıyla
getdi bağa,
o baş çəkdi
hər bucağa.
Dolaşdıqca
gülzarlığı,
gül boxçanı,
seyr eylədi
hər qönçəni.
Sevə-sevə
oxşadı o.
Dedi: "Qəlbin
naxşıdı bu".
Nərgiz bala
gör neylədi,
dayısına
tez söylədi:
"Çiçəklərdən
dəstə-dəstə
dərəcəm mən,
axşam evə
gedərkən də
öz anama
verəcəm mən.
Axı o da
bir çiçəkdi,
necə şirin,
xoş göyçəkdi".

## SƏRKƏRDƏ ÖMƏR

Minib qarğı atını
sevimli nəvəm Ömər.
"Haydı, arxamca" - deyə
həmən irəli cumar.

Bəzisinə deyər ki,
"siz arxaya tez kecin".
Bəzisinə:"Durmayın,
əzməyə düşmən seçin".

Gah hücuma keçər o,
gah da geri çəkilər.
"Yağıların"önündə
divar kimi dikilər .

Haraylayar "döyüşə"
o "döyüş" dostlarını,
Sınayar lap dar anda
onların ilqarını.

Sərkərdətək "döyüşə"
aparar o hər kəsi.
Elə ona görə də
qalib gələr dəstəsi.

## PİŞİK OLUB XƏDİCƏ

Artıq daha
pişik olub
bu Xədicə.
Miyoldayır
pişiklərtək
zərif-zərif,
incə-incə.
Harda görsə,
alıb onu
ağuşuna,
tutur sevda
yağışına...
"Mənim məstan,
şən pişiyim,
sənsən ilkim,
son beşiyim"-
deyə-deyə,
öyə-öyə
sevələyir
o pişiyi,
arxasınca
dolanır hey
ev-eşiyi.

## "AY NƏNƏ, BİR NAĞIL DE..."

Ay nənə, bir nağıl de,
Yatmış ruhum oyansın.
Uşaq könlüm biryoluq,
Nur selinə boyansın.

Ay nənə, bir nağıl de,
Qoy, könlümü uyutsun.
Oxşayıb hər an məni,
Gündə bir boy böyütsün.

Ay nənə, bir nağıl de,
Baldan da şirin olsun.
Qaynar çeşmələr təki,
Suyu saf, sərin olsun.

Ay nənə, bir nağıl de,
Şirin yuxu gətirsin.
Alıb bu yer üzündən
Məni göyə götürsün.